# UŞAQLARIN SEVİNCİ DÜNYANIN SEVİNCİDİR

**1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür. Bu gün Azərbaycan uşaqlarının da şənlik, xoşbəxtlik və gələcəyə ümid günüdür.**

**Azərbaycan Uşaq Fondu bu bayramı hər il olduğu kimi bu il də ənənəsinə sadiq qalaraq özünün fəaliyyət planında olan maraqlı, yaddaqalan tədbirlərlə qarşılayır.**

**Körpə qığıltısı dünyanın ən gözəl səsidir. Bu səs ürəklərə mərhəmət, şəfqət hissi dolduraraq ən qəddar, insafsız bir qatili də tərk-silah edib tərbiyələndirir, insanı həyata bağlayır. Bu səs... Hər bir ailənin təməlini möhkəm, hər bir millətin sabahını xoşbəxt edər.**

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Uşaqlar cəmiyyətin ən gözəl hissəsidir. Hər bir insan, hər ana, hər ata öz xoşbəxtliyini, birinci növbədə öz uşağında, öz övladında görür. Ailədə yeni uşağın dünyaya gəlməsi ailə üçün bütün sevinclərdən üstündür, çünki insan yaşayır, yaradır və cəmiyyətin gələcəyini yaradır. Mənim üçün hər bir ailədə uşağın dünyaya gəlməsi və bu ailənin sevinci elə mənim sevincimdir. Mənim üçün hər bir uşağın həyatı bizim ümumi cəmiyyətin həyatıdır".

Bu, sadəcə söylənmiş fikirlər deyil, ulu öndərin həyat amalı idi. O, bütün həyatı boyu uşaqlardan öz sevincini əsirgəmədi, onların gələcəyini təmin edən mühüm əhəmiyyətli fərman və sərəncamlara imza atdı, onların uğuruna sevindi, onlarla birgə keçirdiyi anları həyatının ən xoşbəxt məqamı kimi dəyərləndirdi...

Ümummilli liderimizin uşaq dünyasına göstərdiyi diqqət və qayğı bu gün onun layiqli davamçısı, dövlət başçımız İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra 1992-ci ildən Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında kovensiyası"na qoşuldu. Az sonra "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanıb qəbul olunmaq ücün Milli Məclisə təqdim edildi. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş usaqların sosial müdafiəsi haqqında" Qanunun işlənməsində fondumuz fəal iştirak etmişdir. Hər iki qanun Milli Məclisdə qəbul edilib ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiq olunmuşdur. Bu qanunlar uşaq problemləri ilə məşğul olan bütün təşkilatlara paylanmış, fondun fəalları tərəfindən uşaqlar, valideynlər, müəllimlər arasında öyrənilməsi təmin edilmişdir.

Fond və onun yerli şöbələri yarandığı vaxtdan uşaqların həll olunmamış problemlərini öyrənir, hökumətin və ictimaiyyətin nəzərinə çatdırır, onları bu problemlərin həll olunmasına çağırır.

Məhz bu müraciətlərə əsasən 1990-cı il avqustun 28-də "Dövlət himayəsində olmayan yetim uşaqlara və valideyn himayəsindən məhrum uşaqlara kömək göstərilməsi tədbirləri haqqında", 1991-ci il avqustun 29-da "Azərbaycan Respublikasında dövlət himayəsində olan uşaqlara yardımı gücləndirmək və internat tipli müəssisələrin fəaliyyətini daha da yaxşılaşdırmaq tədbirləri haqqında", 1994-cü il dekabrın 29-da "Azərbaycan Respublikası internat tipli təlim-tərbiyə müəssisələrinin maddi təminatı, uşaq və şagirdlərin həyat şəraitinin yaxşılaşdırılması, yetim və valideyn himayəsindən məhrum usaqların sosial müdafiəsi sahəsində təxirəsalınmaz tədbirlər haqqında" qərarlar qəbul olunmuşdur.

Azərbaycan Uşaq Fondu artıq 26 ildir ki, fəaliyyət göstərir. Bu illər ərzində həyata keçirdiyi xeyriyyəçilik işlərinin həcmi böyükdür. Bu gün bunlar ulu onbərimiz Heydər Əliyev və onun layiqli davamçısı, ölkə başçısı İham Əliyevin Azərbaycan Usaq Fonduna göstərdikləri köməyin sayəsində reallaşmışdır.

Fondumuz ölkəmizin birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun uşaq problemləri istiqamətində apardığı işlərdə də fəal iştirak edir. Ötən 26 ildə fond, onun şəhər və rayon şöbələri faydalı, səmərəli işlər görmüşdur.

Fondun əsas iş fəaliyyəti uşaqların tərbiyəsinin, təhsilinin, sağlamlığının möhkəmləndirilməsi, hüquqlarının müdafiəsi, onlara maddi və mənəvi kömək göstərilməsinə yönəlmişdir. Qarabağ münaqişəsi nəticəsində respublikada 1988-ci ildən bəri ata-analarından məhrum olmuş qaçqın uşaqların problemlərinin həlli də fəaliyyət istiqamətinə daxildir.

Azərbaycan Uşaq Fondu 2014-cü ildə də ənənəvi olaraq fəaliyyətini kimsəsiz, yetim, qaçqın, məcburi köçkün, əlil, xəstə və aztəminatlı ailələrdən olan uşaqların problemlərinin aşkar olunması və həlli istiqamətində qurmuşdur. İl ərzində göstərilən təbəqədən olan uşaqların hüquqlarının qorunması, onlara maddi və mənəvi köməklik göstərilməsi, xüsusi istedada malik uşaqların aşkarlanması, onların arasında musiqi, rəsm, fənn olimpiadalarının və digər tədbirlərin keçirilməsi, qaliblərin mükafatlandırılması, idman növləri üzrə yarışların təşkili kimi bir çox səmərəli işlər görülmüşdür. Uşaqlar üçün Yeni il, Novruz bayramı, 1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü, Bilik Günü, Respublika Günü və bütün tarixi təqvim günlərinə həsr olunmuş geniş tədbirlər keçirilmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Uşaq Fondu tərəfindən respublikada ilk dəfə olaraq hələ 1996-cı ildə "Uşaq hüquqları haqqında konvensiya" Azərbaycan dilində tərcümə olunaraq, 7500 nüsxədə çap olunmuş və uşaq problemləri ilə məşğul olan bütün təşkilatlara paylanmışdır. Konvensiyanın öyrənilməsi və uşaqların maarifləndirilməsi istiqamətində bir sıra tədbirlər təşkil edilərək, həyata keçirilmişdir.

Fondun şəhər və rayon şöbələri tərəfindən uşaqların məktəblərdən yayınmaması və məktəbə cəlb olunması üçün də lazımi tədbirlər görülür.

Azərbaycan Uşaq Fondunun mərkəzi aparatı əsas diqqəti yerli təşkilatların fəaliyyətini fəallaşdırmağa yönəltmişdir.

Fond 2014-cü ildə də hər il olduğu kimi, bir sıra xeyriyyə işləri aparmış, hökumət, qeyri-hökumət və beynəlxalq təşkilatlarla geniş əlaqələr qurmuşdur.

2014-cü ildə proqram üzrə 264131 manat vəsait xərclənmiş və 12915 uşaq əhatə olunmuşdur. Bu vəsaitlər yetim, qaçqın, əlil, xəstə və aztəminatlı ailələrdən olan uşaqların ehtiyaclarına yönəlmişdir.

Ötən ildə fondun rayon və şəhər şöbələri tədbirlər planı hazırlayıb onu uğurla icra etmiş, bu şöbələr tərəfindən uşaqların təlim-tərbiyəsi, dünyagörüşlərinin artırılması, hüquqlarının müdafiəsi istiqamətində bir sıra işlər görülmüşdür.



"Uşaq hüquqları konvensiyası"nın, "Uşaq hüquqları haqqında" qanunların öyrənilməsi məqsədilə məktəblərdə şagirdlər, onların müəllim və valideynləri üçün maarifləndirmə işləri aparılmışdır. Fondun şöbələri tərəfindən uşaqlar arasında müxtəlif mövzular üzrə disputlar, yaradıcılıq müsabiqələri, fənlər üzrə olimpiadalar, idman yarışları, mədəni maarifləndirmə tədbirləri və digər tədbirlər təşkil edilmişdir.

Azərbaycan Uşaq Fondunun fəaliyyəti dövründə öz işləri ilə fərqlənən fondun həmsədri akademik Ədilə Namazovanın, I müavin Aqil Məhərrəmovun, müavin Flora Səlimovanın və fondun aparıcı mütəxəssisi Sevda Nağıyevanın əməyi də xüsusi qeyd olunmalıdır.

1 iyun uşaqların bayramıdır. Uşaqların builki bayram sevinci ölkəmizdə keçiriləcək I Avropa Oyunları sevincinə qarışmışdır. Çünki ölkəmizdə keçiriləcək bu möhtəşəm tədbir uşaqdan tutmuş böyüyə kimi hər bir azərbaycanlının ürəyində qürur və sevinc hissi oyadır. Uşaq sevinci isə dünyanın sevincidir. Gəlin elə edək ki, onların çöhrəsindən gülüş, sevinc heç zaman əskik olmasın, onda dünyamız özü gülər.

Mən də 1 iyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə gül balalarımızı ürəkdən təbrik edir, uşaqlar üçün çalışan hər bir təşkilata uğurlar diləyirəm. Sonda onu demək istəyirəm ki, uşaqlara qayğı sabahımıza qayğıdır. Biz bundan sonra da dövlətimizin bu istiqamətdə işlərində fəal iştirak edərək daim balalarımızın qayğısına qalmağa çalışacağıq.

**İsmayıl İBRAHİMOV,**
**Azərbaycan Uşaq Fondunun sədri, akademik.**